# AVROMED COMPANY QSC

# BİZNES DAVRANIŞ KODEKSİ



Bu sənəd üzrə bütün hüquqlar AVROMED COMPANY QSC-nə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.

# *Mündəricat*


*1. Giriş* ... *3*

1.1. Biznes Davranış Kodeksi ... 3

1.2. Kodeksin kimə şamil edilir? – Ümumi müddəalar ... 3

1.3. Kodeksin məqsədi və təfsiri ... 3

1.4. Kodeksə riayət etmə ... 4

1.5. Güman edilən pozulmalar barədə məlumat vermə ... 4

1.6. Təzyiq və ya təqibdən qoruma siyasəti ... 5

1.7. İşçilərin öhdəlikləri ... 5

1.8. Rəhbər vəzifə tutan şəxslərin əlavə öhdəlikləri ... 6

*2. Etik və etibarlı iş mühiti* ... *6*

2.1. Ədalətli davranış: Ayrıseçkiliyə yol verilməməsi ... 6

2.2. Təzyiq və təcavüz ... 6

2.3. Sağlamlıq və təhlükəsizlik ... 7

2.4. Uşaq əməyinin və məcburi əməyinin qadağan olunması ... 7

2.5. Dini və siyasi fəaliyyət ... 7

*3. Biznes davranış təcrübəsi – Koorporativ üslub* ... *8*

3.1. Anti-korrupsiya tədbirləri ... 8

3.2. Çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə qarşı tədbirlər ... 9

3.3. Dələduzluq ... 9

3.4. Ədalətli rəqabət ... 9

3.5. Mühasibatlıq və hesabatlılıq ... 10

*4. Maraqların Toqquşması* ... *10*

4.1. Maraqların toqquşmasının həlli ... 11

4.2. Hədiyyələr və əyləncələr ... 11

*5. Məlumatlardan istifadə* ... *11*

5.1. Şəxsi məlumatların məxfiliyi ... 12

5.2. Məxfi məlumat və konfıdensıallıq ... 12

5.3. Əqli mülkiyyət ... 12

5.4. Elektron resurslardan istifadə ... 13




***Bu sənəd üzrə bütün hüquqlar "Avromed Company" QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

# 1. Giriş

## 1.1. Biznes Davranış Kodeksi

“Avromed Company” QSC (bundan sonra Cəmiyyət və ya Şirkət) biznes fəaliyyətini dürüstlük, etibarlılıq, qərəzsizlik, yüksək etik davranış və hüquq standartlarına sadiqlik prinsiplərilə həyata keçirir.

Biznes Davranış Kodeksi (bundan sonra “Kodeks”) Cəmiyyətin işçilərinin (bundan sonra müvafiq olaraq “işçi” və ya “işçilər”) dəyərlərimizi və dürüstlüyü təbliğ etmək, həmçinin qeyri-qanuni əməllərin qarşısını almaq üçün nəzərdə tutulub. Sənəddə Şirkətin etik davranış qaydaları ilə bağlı tələblər yer alır və bu qaydalar bütün işçilərə şamil edilir.

Bu Kodeks Azərbaycan Respublikasının “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanununa və digər müvafiq yerli qanunvericiliyə, Əmək Məcəlləsinə istinadla, habelə, Böyük Britaniyanın Rüşvət Aktı (UK Bribery Act), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Beynəlxalq Biznesdə Xarici Dövlətlərin Vəzifəli Şəxslərin Rüşvətçiliyinə qarşı Mübarizə Konvensiyası (OECD Anti-Bribery Convention), Amerika Birləşmiş Ştatlarının Xarici Korrupsiya Təcrübələri haqqında Aktı (Foreign Corrupt Practices Act, FCPA) kimi beynəlxalq normalara və Beynəlxalq Biznesdə Xarici Dövlətlərin vəzifəli şəxslərin rüşvətçiliyinə qarşı mübarizə konvensiyasına (Foreign Corrupt Practices Act (FCPA), OECD Anti-Bribery Convention) uyğun qaydada hazırlanmışdır.

## 1.2. Kodeksin kimə şamil edilir? – Ümumi müddəalar

Vəzifədən asılı olmayaraq bütün işçilər və “Avromed Company” QSC adından hərəkət edən hər bir şəxs iş fəaliyyəti və ya şirkətin maraqlarını təmsil etdiyi müddətdə bu Kodeksə əməl etməlidir.

Şirkət ilə əməkdaşlıq edən təchizatçılar, müştərilər, nümayəndələr, agentlər, kontragentlər, müttəfiqlər, satıcılar, müşavirlər, məsləhətçilər və digər biznes tərəfdaşları və ya ortaqlardan bu Kodeksdə əks olunan yüksək etika standartlarına əməl etməsini gözləyirik.

“Avromed Company” QSC-nin nüfuzuna və ya etibarına mənfi təsir göstərəcək heç bir fəaliyyətə qoşulmamalısınız.

İşçilər Kodeksin tələblərini təhrifsiz və dolğun anlamalıdır. İşə qəbul edilən hər bir şəxs Biznes Davranış Kodeksi üzrə məsul şəxs tərəfindən yazılı təsdiq yolu ilə Baş İcraçı Direktor tərəfindən təsdiq edilən bu qaydalarla tanış edilir. Bu Kodeks Şirkətdə yeni fəaliyyətə başlamış əməkdaşlar üçün vəzifə səlahiyyətlərinin icrası zamanı metodiki vəsait olaraq fəaliyyət istiqamətləndirilməsinin önəmli hissəsini təşkil edir.

Kodeksin nüsxələri, ona əməl etməli olan hər bir şəxsə birbaşa və ya Şirkətin internet kommunikasiya resurslarında dərc edilməklə/paylaşılmaqla çatdırılır.

## 1.3. Kodeksin məqsədi və təfsiri

Kodeks faydalı təlimatlar təmin etmək üçün nəzərdə tutulsa da, o, yarana biləcək bütün halları əhatə etmir və vəzifələrinizi yerinə yetirərkən rastlaşa biləcək hər bir hüquqi və ya etik məsələyə dair tam bələdçi deyil. Bu Kodeks eyni zamanda işçiləri suallar verməyə və , narahatlıqlarını ifadə etməyə və iş



*Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.*

təcrübələrilə bağlı müvafiq təkliflər irəli sürməyə təşviq edir. Siz həmçinin hər bir xüsusi vəziyyətə tətbiq oluna bilən Şirkətdə mövcud olan digər siyasət və prosedurları nəzərdən keçirməlisiniz.

Kodeks işçilərdə etik davranış qaydalarının formalaşması və həmin qaydalara effektiv əməl olunmasını təmin etmək məqsədilə tərtib olunaraq, sağlam və innovativ korporativ mədəniyyətin, güclü komanda ruhunun yaradılmasına dair prinsipləri ehtiva edir. Dürüstlük və sağlam düşüncə bir hərəkətin bu Kodeksə uyğun olub-olmadığını qiymətləndirmək üçün mühüm əsasdır və sizdən gündəlik işgüzar fəaliyyətini həyata keçirərkən düzgün mühakimə yürütməyiniz, yüksək etik standartları qorumağınız və Şirkətin dəyərlərinə hörmət etməyiniz gözlənilir.

İşçilərin fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, həmçinin işçilərdən gözlənilən davranış barədə onların Biznes Davranış Kodeksinə uyğunluğunu qiymətləndirmək üçün vasitələr təqdim edən Kodeksdə ən önəmli keyfiyyət meyarı olaraq dürüstlük və açıq fikirliliyi əsas götürür.

Cari qanunvericilik normaları və ya digər struktur daxili təsdiqlənən siyasət sənədlərində olan müddəalar bu Kodeksdən fərqlənirsə, yaxud Kodeksin implementasiyası barədə Sizdə sual yarandarsa növbəti atılacaq addımlar barədə müvafiq vəzifəli şəxslərdən (rəhbərlik, Hüquq departamenti, İnsan Resursları Departamenti və ya Daxili uyğunluq üzrə menecer) təlimat alınmalıdır.

Xoşagəlməz, qeyri-qanuni və ya qeyri-etik davranış bu Kodeksin müddəalarının pozulması kimi dəyərləndirilir. Şirkət bu Kodeksin faktiki və ya potensial pozuntularının qarşısını almaq üçün müvafiq intizam və qabaqlayıcı tədbirlər görülməsi məqsədilə bütün pozuntuları qeydə alır və müvafiq şəkildə məruzə edir.

## *1.4. Kodeksə riayət etmə*

Şirkətin qəbul etdiyi Biznes Davranış Kodeksinə, habelə strukturdaxili istifadə üçün təsdiqlənmiş digər daxili prosedur siyasəti sənədlərinin tələblərinə riayət etməmə, bilərəkdən yanlış məlumatların verilməsi, şər və ya böhtan xarakterli iddiaların, məlumatların təqdim edilməsi intizam tədbirinin görülməsi üçün əsasdır. Kodeksə riayət etməmə halı işçinin işdən azad edilməsi və/və ya qanunla tənzimlənən müvafiq tədbirlərin görülməsilə nəticələnə bilər.

## *1.5. Güman edilən pozulmalar barədə məlumat vermə*

Şirkətin (və ya Şirkətin adından çıxış edən hər hansı bir şəxsin) bu Kodeksə, AR qanunları, habelə, qayda və hüquqi normalar baxımından faktiki və ya ehtimal olunan uyğunsuz davranışı barədə məlumatınız olduğu təqdirdə, bu barədə dərhal xəbər vermək öhdəliyiniz vardır.

Məlumatı şifahi və ya yazılı qaydada (anaonimliyin qorunmasına dair arzunuz nəzərə alınmaqla) verə bilərsiz.

Şübhələrə dair bildirişlər müxtəlif vasitələrlə çatdırılır:

- ✓ İşçinin birbaşa rəhbər/menecerinə bildirməklə;
- ✓ Şirkətin Daxili uyğunluq üzrə menecerinə bildirməklə;
- ✓ Etika və uyğunluğa dair “SpeakUp" kanalı vasitəsilə bildirməklə (“SpeakUp” kanalı elektron poçt ilə fəaliyyət göstərir: speakup@avromed.az)



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

Şirkət hər birinizə qanunvericiliyin tələblərinə əməl edilməsinin əhəmiyyətini bir daha vurğulayır və törədilən qeyri-qanuni əməllər barədə məlumat verməyən şəxsə qarşı intizam tədbirinin tətbiq olunacağını diqqətinizə çatdırır.

Qeyd edək ki, törədilən cinayət əməli və ya qanunsuzluq barədə məlumat verdiyiniz təqdirdə anonim qalma imkanınız vardır və sizdən şəxsiyyətinizi açıqlamaq tələb olunmur. Şirkət daxil olan məlumatların məxfiliyini təmin edir və könüllü şəkildə xoş niyyətlə məlumat verən şəxsləri intiqam xarakterli əməllərdən və ya təhdidlərdən qoruyur.

İntiqam xarakterli əməllər və ya təhdidlər barədə dərhal məlumat dərhal verilməlidirir və qanuna müvafiq qaydada intizam tədbirləri tətbiq edilməlidirir. Hər hansı hadisə ilə bağlı intiqam əməlinə məruz qaldığınız təqdirdə, yuxarıda qeyd olunan kanallar vasitəsilə Şirkətə məlumat verilməlidir.

## *1.6. Təzyiq və ya təqibdən qoruma siyasəti*

Şirkətin hər bir işçisi və ya əlaqəli şəxs etika və ya hüquq məsələləri ilə bağlı narahatlığını ifadə edə və ya suallarını ünvanlaya bilər. Eyni zamanda, Kodeksin faktiki və ya ehtimal olunan pozulması və ya məlum olan digər qeyri-etik və ya qeyri-qanuni hallar barədə məlumat vermək hər bir işçinin borcudur.

"Avromed Company" QSC tərəfindən şikayət edən, məlumat verən yaxud iddia irəli sürən istənilən şəxsə qarşı heç bir intiqam münasibətə yol verilmir, o cümlədən, məğduriyyət, təhdid, təqib və ya diskriminasiya, habelə, qanunla nəzərdə tutulan imtiyaz və ya haqqının ödənməməsi, işdən çıxarılma, aşağı vəzifəyə keçirmə və s. kimi hərəkətlər tamamilə qadağandır.

Qanun və bu Kodeksin pozuntusu barədə məlumat verən şəxsə qarşı təzyiq və ya təqib əməlin (yaxud bildirilmiş pozuntunun araşdırılmasında köməklik göstərən şəxsə qarşı) özü də Kodeksin ciddi pozuntusu hesab olunur. Bu, hətta verdiyiniz məlumatın faktiki pozuntu olmadığı aşkar edildiyi hallara da tədbiq edilir, o şərtlə ki şikayət xoş məramla edilmişdir.

Məlumat verən şəxsə qarşı təzyiq və ya təqib məqsədli əməl törədən hər bir şəxsə qarşı intizam tədbiri görülə, habelə, əmək münasibətlərinə son qoyula bilər.

## *1.7. İşçilərin öhdəlikləri*

Bu Kodeksin və digər tənzimləyici sənədlərin, müvafiq qanunvericilik aktlarının tələblərinə əməl etməyiniz mütləqdir. Bu Kodeksi, Şirkətdəki fəaliyyətinizlə bağlı digər təsdiqlənmiş tələbləri diqqətlə oxuyub anlamağınız və daxili uyğunluq təlimində iştirak etməyiniz vacibdir. Hər bir işçi bu Kodeks ilə tanış olub, əməl etmə öhdəliyini müvafiq qaydada hər il təsdiqləməlidir.

Hər bir işçidən vəzifə təlimatına və səlahiyyətlərinə uyğun qaydada işini ən yüksək keyfiyyət səviyyəsində icra etmək, Şirkətin resurslarından təyinatına görə istifadə etmək, daxili və ya məxfi məlumatların qorumasında məsuliyyətli davranış, təhlükəsizlik və sağlamlıq mədəniyyətinə uyğun yaşam tərzinə əməl etmək gözlənilir. Belə ki, vəzifəsindən asılı olmayaraq hər bir işçi Şirkətin dəyərlərini bütün ictimai münasibətlərdə dəstəkləyib bu dəyərlərə uyğun davranış nümayiş edir.

İşçi bu Kodeksin tələblərinin pozuntusuna yaxud başqa qeyri-etik davranışa şahid olduğu təqdirdə, bu barədə rəhbərliyə (və ya yuxarıda qeyd olunan əlaqə/kommunikasiya vasitəsilə) məlumat verməlidir ki, məsələyə çevik müdaxilə olunsun, Şirkətinin etibarı və etimadı qorunsun.



***Bu sənəd üzrə bütün hüquqlar "Avromed Company" QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

### 1.8. Rəhbər vəzifə tutan şəxslərin əlavə öhdəlikləri

Menecerlərin və rəhbər vəzifə tutan şəxslərin əlavə məsuliyyətləri olmaqla yanaşı, onlar həm də etik davranışın nümunəsini formalaşdırır. Rəhbər şəxs olaraq əmin olmalısız ki, sizə həvalə edilmiş iş prosesi bu Kodeksə və digər tənzimləyici sənədlərə uyğun həyata keçirilir. Hər bir rəhbər şəxs, bu Kodeksin müddəalarının işçilər tərəfindən anlaşılmasına və əməl edilməsinə köməklik göstərməlidir.

Rəhbər şəxslər bilavasitə tabeliyində olanların onunla birbaşa əlaqə saxlaması üçün şərait yaratmalı, bu sahədə bürokratik əngəllərə yol verməməlidir. Onlar şəxsi maraqlardan irəli gələn məsələlərlə bağlı şəxsən və ya digər şəxslər vasitəsi ilə tabeliyində olanlara təzyiq etməməlidirlər. Belə ki, birbaşa rəhbər vəzifəsini icra edən menecer müəyyən vəziyyətə düzgün münasibət barədə əmin deyildirsə, rəhbərliyə və ya Daxili uyğunluq üzrə menecerə məsləhət üçün müraciət etməlidir.

Rəhbər davranış qaydalarının pozulmasına dair siqnallara heç bir halda laqeydlik göstərməməli, öz heyətindən tələb olunan təlimlərdə iştirakını və ehtiyac olduğu təqdirdə əlavə təlimatların təşkilini təmin etməlidir.

## 2. Etik və etibarlı iş mühiti

“Avromed Company” QSC-də iş mühiti şəffaf, hər bir şəxsə fərdi hörmət, etibarlı münasibətlərlə təmin olunur. Bütün əməkdaşlarımız biznesə töhfə vermək və gördükləri iş və biznesə verdiyi töhfələrə əsasən uğur qazanmaq üçün bərabər şansa malikdirlərın müvəffəqiyyəti gördüyü işin dəyərinə və biznesdə iştirakına əsasən qiymətləndirili. Biz, əmək fəaliyyətimizdə ayrıseçkiliyə, təzyiqlərə yol vermirik və əməyin təhlükəsizliyi ən vacib məqamlardan biri kimi qiymətləndirilir.

### 2.1. Ədalətli davranış: Ayrıseçkiliyə yol verilməməsi

Fəaliyyətimiz bütün işçilərə vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə və ya siyasi baxışlarına görə ayrıseçkilik, təzyiq göstərmədən, bərabərlik və ləyaqət prinsipi üzərində qurulmuşdur.

Ədalətli münasibət - ayrıseçkiliyin qadağan edilməsi Şirkətin bərabərlik, etik davranış və cavabdehlik standartlarının təməlini təşkil edir. Hər bir insan, cinsindən, gender münasibətlərindən və ya özünü ifadəsindən, etnik mənsubiyyətdən, dinindən və digər inanclarından, əlillik statusundan və ya yaşından asılı olmayaraq bərabər hüquqlara və imkanlara malikdir. Bu prinsiplərə həmçinin Şirkət daxilində bərabər məşğulluq və karyera imkanları da daxildir.

Heç bir ayrıseçkiliyə yol verilməyən iş mühitinin yaradılması və inklüziv davranış mədəniyyətinin nümayiş etdirilməsində aktiv rol oynamalısınız.

### 2.2. Təzyiq və təcavüz

“Avromed Company” QSC-də təzyiq, şiddət və təcavüzün hər hansı forması və ya digər təhqiramiz və təhqiredici davranış bu Kodekslə qadağan edilir. Bura cinsi qısnama, zorakılıq, arzuolunmaz cinsi irəliləyişlər, ayrı-seçkilik yaradan şərhlər, etnik mənsubiyyət, dini və ya irqi mənsubiyyət əsasında



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

təhqiramiz zarafatlardan istifadə, münasib görülməyən ifadələr və digər qeyri-peşəkar davranışlar daxildir.

Qısnama, təngəgətirmə, irqçilik ifadələri, ayrı-seçkilik davranışı, nalayiq sözlər, şifahi aqressiya, fiziki aqressiya və ya hədələyici davranış, təhqir və seksual qısnama davranış qaydalarınln inzibati tədbir görülməsini tələb edən ciddi şəkildə pozulmasıdır.

Şirkətdə işləyən hər bir şəxs, həmkarlarına, Şirkət ilə əlaqəli şəxslərə, müştərilərə, təchizatçılara, rəqiblərə, Şirkətin fəaliyyət göstərdiyi ölkə və icmalara qərəzsiz və *hörmətlə* yanaşmalıdır, və onlarla qanun çərçivəsində və etik çərçivədə nəzakətli münasibətlər qurmalıdır.

Qeyd edək ki, sadalanan hər hansı təzyiq, təcavüz və ya başqa qeyri-müvafiq davranışlar barədə məlumat verməyiniz zəruridir. Şirkətdə təcavüz və ya digər təhqiredici davranışın şahidi olduğunuz təqdirdə, Sizdən bu barədə məlumat verməyiniz tələb olunur.

### *2.3. Sağlamlıq və təhlükəsizlik*

“Avromed Company” QSC baş ofis və digər struktur bölmələrində çalışan hər bir əməkdaşı üçün iş mühitinin etibarına, təhlükəsiz təşkilin təmin dair məsuliyyətini qəbul edir. Həmçinin, hər bir işçidən etibarlı, təhlükəsiz və sağlam iş mühitini təbliğ edib, nümunəvi korporativ mühitin yaradılmasına dair töhfə verməyi gözləyir.

İş funksiyalarınızı icra edərkən davranış və təhlükəsizliklə bağlı Şirkət qaydalarına və qanunvericilik normalarının tələblərinə riayət etməyiniz xahiş olunur.

Heç bir zaman özünüzün və digər insanların təhlükəsizliyini risk altına qoyacaq hər hansı şərt və ya tələblər altında işləməyin. Sağlamlıq, təhlükəsizlik və ya mühafizə məsələlərinə dair qayda yaxud prosedurların pozulması barədə birbaşa rəhbərinizə məlumat verin.

### *2.4. Uşaq əməyinin və məcburi əməyinin qadağan olunması*

“Avromed Company” QSC-də müvafiq qanunvericilik tələblərinə və beynəlxalq konvensiya normalarına uyğun olaraq biznes fəaliyyətinin heç bir mərhələsində uşaq əməyinin istifadəsinə, uşaqlara qarşı zorakılığa və güc tətbiqinə yol verilmir, uşaq əməyindən istifadə istismar olaraq dəyərləndirilir və qadağan edilir.

AR Əmək Məcəlləsinə əsasən, uşaqların işə qəbul edilməsi üçün minimum yaş həddi 15 yaş müəyyən edilib. Çətin və təhlükəli işlərə, habelə narkotik və toksik maddələrin olduğu, saxlandığı və ya satıldığı yerlərə, habelə narkotik tərkibli dərman vasitələrinin, psixotrop maddələrin və onların prekursor birləşmələrinin dövr etdiyi yerlərdə isə 18 yaşdan aşağı olan şəxslərin işə cəlb edilməsi qadağandır. Fəaliyyətimizdə, təchizatçılarımızın fəaliyyətində və ya əməkdaşlıq etdiyimiz digər hüquqi/fiziki şəxslərin fəaliyyətində qanunsuz, zorla və ya məcburi əməyə yol verilmir.

### *2.5. Dini və siyasi fəaliyyət*

“Avromed Company” QSC işçilərin mövcud qanunvericiliyə uyğun qaydada, Şirkətin nüfuzundan, adından və əmlakından istifadə etmədən həyata keçirdiyi legitim dini və siyasi fəaliyyətinə hörmətlə yanaşır.



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

Dini və ya siyasi fəaliyyətlərdə iştirak etmək istədiyiniz halda (ianə, maliyyə yardımı, sponsorluq və sairə), bu Şirkətin nümayəndəsi kimi deyil, öz adınızdan icra edilməlidir. Lakin, bütün hallarda bu qəbildən fəaliyyətin vəzifə funksiyalarına potensial təsiri barədə birbaşa rəhbərinizi və ya Daxili uyğunluq üzrə meneceri xəbərdar etməlisiniz.

İşçilər dini və siyasi fəaliyyətləri barədə fikirlərini açıq ifadə etmək hüququna sahibdirlər, lakin, bu fikirlərin Şirkət fəaliyyəti ilə əlaqədar olmadığını hər zaman bildirilməlidirlər. İşçilər Şirkətin fəaliyyət göstərdiyi hər bir yurisdiksiyada siyasi və dini töhfələri tənzimləyən bütün qanun və qaydalara riayət etməlidirlər.

## 3. Biznes davranış təcrübəsi – Koorporativ üslub

“Avromed Company” QSC öz işçilərindən və Şirkət adından fəaliyyət göstərən hər bir kəsdən əmək və məşğulluq təcrübələri, məxfilik, insan hüquqları, istehlakçıların müdafiəsi, əqli mülkiyyət, reklam, maliyyə, vergi, qiymətli kağızlar, rəqabət və ticarət, siyasi töhfələr, korrupsiya, çirkli pulların yuyulması, ətraf mühit, sağlamlıq və təhlükəsizliklə bağlı olanlar da daxil olmaqla (lakin bununla məhdudlaşmayaraq) bütün qüvvədə olan qanunlara və qaydalara əməl etmələrini gözləyir.

### 3.1. Anti-korrupsiya tədbirləri

Rüşvət və korrupsiya qeyri-qanuni və dəyərlərimizə zidd olan əməllərdir. Korrupsiya həm işçini, həm də şirkəti cərimə və cəzalara məruz qoya və şirkətin nüfuzuna xələl gətirə bilər. Biz birbaşa və ya dolayı yolla rüşvət və ya “Şirinlik” təklif etmək, ödəmək və ya almaqla və ya qeyri-etik, qeyri-qanuni hesab edilən və ya dürüstlük reputasiyamıza zərər vuran hər hansı digər vasitələrlə başqalarına təsir etməyə cəhd etmirik.

“Avromed Company QSC-də korrupsiyanın bütün formalarına, o cümlədən rüşvətə, köməkçi bəxşişlərə və nüfuz ticarətinə qətiyyətlə yol verilmir. Şirkət fəaliyyətini Azərbaycan Respublikasının “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanununa, habelə, Böyük Britaniyanın Rüşvət Aktı (UK Bribery Act), və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Beynəlxalq Biznesdə Xarici Dövlətlərin Vvəzifəli Şşəxslərin Rrüşvətçiliyinə qarşı Mmübarizə kKonvensiyasına (OECD Anti-Bribery Convention), Amerika Birləşmiş Ştatlarının Xarici Korrupsiya Təcrübələri haqqında Aktı ((Foreign Corrupt Practices Act, (FCPA), OECD Anti-Bribery Convention) kimi beynəlxalq normalara uyğun qaydada qurur.

Biz işimizi açıq və şəffaf şəkildə aparırıq və üçüncü tərəflərlə münasibətdə dürüstlük tələblərimizə əməl edirik. Şirkətin standart müqavilə və sazişlərində təchizatçılardan mövcud qanun tələblərinə, düzgün hesabatlılıq və şəffaf reyesterin təşkili tələbi, habelə, rüşvətə qarşı və korrupsiyaya qarşı tədbir öhdəliklər əks olunmalıdır.

Bir qayda olaraq, biznesi əldə etmək və ya saxlamaq, və yaxud rəqiblər üzərində doğru olmayan üstünlüyü təmin etmək məqsədilə pul və yaxud hər hansı digər dəyərli əşya vermək qanundan kənardır. Belə əməllər cinayət məsuliyyəti yaradır və ağır cərimələr və həbs cəzası nəzərdə tutur. Rüşvətxorluğun istənilən forması Şirkət tərəfindən mənəviyyata zidd və qəbul olunmaz əməl kimi dəyərləndirilir. Nəticə etibarilə, biznesin inkişafı və müvafiq prosedurların sadələşdirilməsi məqsədilə aparılan ödənişlər qanunla yol verilməsinə və yaxud qadağan olunmasından asılı olmayaraq qəbul edilməzdir.

“Avromed Company” QSC-nin əməkdaşları rüşvət təklif etmir və ya rüşvət qəbul etmir. Belə bir halın şahidi olan əməkdaş dərhal yuxarıda qeyd olunan bildiriş kanallarına uyğun bu barədə rəhbərliyi məlumatlandırmalıdır. Əməkdaşın belə bir halı görməsi və rəhbərliyi bu hal barədə



*Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.*

məlumatlandırmaması korrupsiyanı dəstəklənməsi kimi qiymətləndiriləcəkdir. Qeyd olunan prosedur tələblərinin pozulması qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsinə, habelə əmək münasibətlərinə xitam verilməsi ilə nəticələnə bilər.

Əgər şəxsi və ya hər hansı ailə üzvünüzün fiziki təhlükəsizliyi, rifahı, sağlamlığı və ya həyati əhəmiyyət daşıyan mövzularla bağlı təhdid altında sizdən iödəniş tələb edilərsə, bu, Kodeksin pozulması kimi qəbul olunmur, lakin, dərhal bu barədə müvafiq qaydada məlumat verilməli və sənədləşdfirilməlidir.

### *3.2. Çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə qarşı tədbirlər*

Çirkli pulların yuyulması ayrı-ayrı şəxslər və ya təşkilatlar cinayət nəticəsində əldə edilmiş vəsaitin (pul vəsaiti, daşınmaz əmlak, qeyri-maddi mülkiyyət və s. resurslar) qeyri-qanuni vəsaitləri gizlətməyə və ya bu vəsaitləri leqal göstərməyə çalışdıqda baş verir. Terrorizmin maliyyələşdirilməsi terrorizm əməllərinin və ya təşkilatlarının dəstəklənməsi üçün qanuni və qanunsuz mənbələrdən vəsaitlərin təmin edilməsi, yığılması və ya tələb edilməsidir.

Çirkli pulların yuyulması qeyri-qanunidir və beynəlxalq qanunlar və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qəti qadağandır. Şirkət çirkli pulların yuyulması hesab edilə biləcək hər hansı əməliyyatları qəti şəkildə qadağan edir və əməkdaşlarından istənilən şübhəli fəaliyyət barədə rəhbərliyi məlumatlandırmalarını tələb edir.

Siz bütün ödəniş tələblərinin, biznes sazişlərinin hesabatını verməli və düzgün protokollar tərtib etməlisiniz. Şübhəli əməliyyatların və ya təchizatçının qeyri-adi vergi statusunun şahidi olduğunuz halda məlumat verməlisiniz.  Təchizatçılar və podratçılar üçün dürüstlük və lazımi araşdırma tələblərinə riayət edilməlidir.

### *3.3. Dələduzluq*

Məlumat da daxil olmaqla şirkətin əmlakının oğurlanması, Şəxsi mənfəət üçün şirkət imkanlarının mənimsənilməsi və ya istifadəsi, saxta mühasibat uçotu – mühasibat məqsədləri üçün tələb olunan hər hansı hesabı, qeydi və ya sənədi vicdansızlıqla zərər vermək, təhrif etmək, gizlətmək və ya saxtalaşdırması, şirkət sənədlərinin saxtalaşdırılması və ya dəyişdirilməsi, şirkət qeydlərinin qəsdən məhv edilməsi və ya silinməsi, yaxud Şirkətə məxsus proqram təminatından sui-istifadə ilə bağlı hər hansı İT fəaliyyət və s. kimi əməllər dələduzluq hesab edilir.

“Avromed Company” QSC bütün hesab kitabları, qeydləri, hesabları və maliyyə hesabatları dəqiq, lazımi şəkildə təfərrüatlı olmalı, Şirkətin və digər qüvvədə olan qanuni tələblərə uyğun olmalıdır. Hər bir işçi dələduzluq ehtimalını yaxud faktını aşkarladığı halda, bu barədə məlumat verməyə borcludur.

### *3.4. Ədalətli rəqabət*

“Avromed Company” QSC “Avromed Company” QSC rəqabətini qeyri-etik və ya qeyri-qanuni biznes təcrübələri ilə deyil, ədalətli və legitim dürüst yollarla, həmçinin, yüksək iş qabiliyyəti vasitəsilə aparır.

Şirkət əməkdaşları öz səlahiyyətləri və əmək vəzifələri çərçivəsində rəqabətin qorunub saxlanılması sahəsində Azərbaycan Respublikasının antiinhisar və digər müvafiq qanunvericiliyi və Şirkətin daxili sənədlərinin və malların, işlərin, xidmətlərin alınması zamanı qarşı tərəflərin seçilməsi tələblərini bilməli və onlara əməl etməlidirlər.



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

Şirkət etik biznes standartları əsasında şəffaf rəqabət mühitinə maneə olan və antiinhisar fəaliyyət və rəqabət haqqında qanunvericiliyin tələblərinə zidd olacaq rəqiblərlə sövdələşmələrə girmir.

Mülkiyyət hüququ ilə qorunan məlumatlara sahib olmaq və ya istifadə etmək məqsədimiz yoxdur. Rəqiblərimiz və ya tərəfdaşlarımızın rəqiblərilə bağlı həssas məlumatları qanuni yolla əldə etdiyimiz halda, bu məlumatları yalnız qanunun icazə tanıdığı formada istifadə edə bilərik.

### 3.5. Mühasibatlıq və hesabatlılıq

"Avromed Company" QSC-də bütün mühasibatlıq qeydləri və dəstəkləyici sənədlərimiz aparılan əməliyyatların xarakterini dəqiq təsvir etməli və əks etdirməlidir. Açıqlanmamış və ya qeydə alınmamış heç bir hesab və ya aktiv yaradılmamalı və ya saxlanılmamalıdır.

"Avromed Company" QSC-də bütün maliyyə məlumatlarının qeydiyyatı müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq tam, şəffaf, dəqiq, zamanında və anlaşılan qaydada aparılmalıdır. Mühasibatlıq qeydləri və dəstəkləyici sənədlərimiz aparılan əməliyyatların xarakterini dəqiq təsvir etməli və əks etdirməlidir.

Açıqlanmamış və ya qeydə alınmamış heç bir məbləğ, hesab və ya aktiv yaradılmamalı və ya saxlanılmamalıdır. Şirkətin mühasibatlıq kitablarında və ya qeyd jurnallarında təhrif edilmiş, düzgün olmayan qeydlər və ya qeyri-münasib mühasibatlıq təcrübəsinə yol verilmir. Ödəniş prossedurunun tələblərinə müvafiq hesab edilməyən və təsdiqlər olmayan sənədlər əsasında Şirkət vəsaitlərindən ödəniş həyata keçirilmir və ya mülkiyyət ötürülmür. Əməliyyatın və ya ödənişin sənədləşdiriləndən fərqli olması niyyəti ilə heç bir əməliyyat və ya ödəniş həyata keçirilə bilməz.

Qanun və biznes təcrübəsinə uyğun olaraq tələb olunan mühasibatlıq məlumatı heç bir əhəmiyyətli çatışmazlıq olmadan tam, ədalətli, dəqiq, vaxtında və başa düşülən vaxtındaqaydada müvafiq qurumlara açıqlamağa hazırıqlıdır.

Şirkətin mühasibat uçotu sisteminin quruluşu, şirkətin uçot siyasətinin düzgün şəkildə işlənib hazırlanmasına və optimal şəkildə aparılmasına şərait yaradan kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Şirkət həmçinin bütün daxili və kənar maliyyə hesabatalarını Maliyyə Hesabatlılığı üzrə Beynəlxalq Standartalara uyğun təşkil edir və ictimaiyyətə açıqlayır.

## *4. Maraqların Toqquşması*

Bütün iş qərarlarımız şəxsən bizim üçün deyil, Şirkətimizin maraqları üçün ən yaxşı və düzgün olana əsaslanmalıdır. Kodeksə əsasən "əməkdaşın, onun yaxın qohumlarının, təsisçilik və asılılıq münasibətlərində olanların şəxsi maraqlarının Şirkətin maraqlarına zidd olan və ya yaxın qohumlarının şəxsi və ya maddi maraqlarına toxunan qərarların qəbul edilməsi, belə qərarların qəbulunda iştirak və ya vəzifə səlahiyyətləri ilə bağlı digər hərəkətlərin edilməsi, obyektiv qərarların qəbul edilməsinə təsir göstərə biləcək vəziyyət və ya şərait yaratmaq" - maraqların toqquşması hesab edilir.



***Bu sənəd üzrə bütün hüquqlar "Avromed Company" QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

### *4.1. Maraqların toqquşmasının həlli*

“Avromed Company” QSC-ni təmsil etdiyiniz təqdirdə, Şirkətin maraqlarına müvafiq hərəkət etməlisiniz. Heç bir halda, maraqların toqquşması potensialı olan və bilən hər hansı fəaliyyət, təcrübə və ya hərəkətlə məşğul olmayın.

Əgər özünüz və ya başqası ilə bağlı faktiki və ya ehtimal edilən maraq toqquşması barədə xəbərdar olsanız, onu müəyyən edilmiş əlaqə kanalları vasitəsilə və “Şirkətin Maraqların Toqquşması Siyasət və Proseduru” sənədində təsvir olunduğu kimi açıqlamalısınız.

### *4.2. Hədiyyələr və əyləncələr*

Sosial ünsiyyət, əlaqələrin genişləndirilməsi, hədiyyə vermək biznes tərəfdaşlarımızla münasibətlərin möhkəmlənməsinə kömək edə bilər. Lakin, Şirkətin əməkdaşları müvafiq qanunvericilik normaları və bu Kodeksin tələblərinə əməl etmədikdə Şirkətin münasibətlərinə və nüfuzuna xələl gətirilə, hüquqi problemlərin yaranmasına səbəb ola bilər. İşlə bağlı hədiyyələrin verilməsi və ya qəbulu da maraqlar toqquşması yarada və hətta təsadüfən edilmiş olsa belə, əməkdaşın obyektivliyini şübhə altında qoya bilər. Siz Şirkət ilə işgüzar münasibət qurmaq istəyən hər hansı müştəridən, tədarükçüdən və yaxud digər şəxsdən hədiyyə və yaxud digər qazanc qəbul etməməlisiz.

“Avromed Company” QSC ilə işgüzar münasibətdə olan hər hansı şəxs tərəfindən hər hansı işgüzar münasibətlərin möhkəmlənməsi üçün əyləncə xarakterli qonaqlığın verilməsi və ya alınması qanuni biznes məqsədlərinə xidmət etməlidir və sizin obyektiv və ədalətli biznes qərarın verilməsinə təsir etməməlidir.

“Hədiyyə” adı altında dəyərli bir əşya, o cümlədən, brend və ya qeyri-adi məmulatlar başa düşülür. Dəyəri yüksək olan hədiyyələr dərhal qaytarılmalı və bu barədə birbaşa menecerə məlumat verilməlidir. Əgər hədiyyəni dərhal qaytarmaq mümkün olmazsa, belə hədiyyə xeyriyyə və yaxud Şirkətin məqbul hesab etdiyi digər məqsədlərlə istifadə edilməsi üçün komplayens üzrə nümayəndəyə təhvil verilməlidir. Nağd pul və ya nağd pul ekvivalentləri hər bir halda qadağan edilir.

Yalnız məntiqli biznes məqsədləri üçün təqdim olunan hədiyyələr zəruri hallarda qəbul oluna və yaxud təklif oluna bilər. Hədiyyələr və ya qonaqpərvərlik dövlət məmurlarını cəlb etdikdə mütləq legitim biznes məqsədinin olduğunda, lazımi təsdiqlərin alındıqda və bu halların lazımi qaydada sənədləşdirildikdə əmin olun.

Şirkətin “Hədiyyə və Bəxşiş Siyasəti” sənədinə uyğun olaraq rəhbərinizi xəbərdar etmək, onun göstərişlərinə əməl etmək və təklif olunan, qəbul edilmiş və ya rədd edilmiş hədiyyə və ya qonaqpərvərliyi sənədləşdirmək sizin öhdəliyinizdir.

## 5. Məlumatlardan istifadə

“Avromed Company” QSC müvafiq qanunlara uyğun olaraq məxfiliyə, dövlət və biznes sirrinin qorunmasına riayət etməklə məlumatları toplayır və istifadə edir. Məlumatların mühafizəsi dedikdə, Şirkətdə əldə edilən məlumatların məxfiliyi, tamlığı və istifadə səlahiyyəti, habelə, kommersiya sirri, əqli-mülkiyyət, şəxsi məlumatlarının məxfiliyinə dair müvafiq qanunların tələblərinə uyğun olaraq dövlət və biznes sirrinin qorunmasına riayət etmək və istifadə nəzərdə tutur.



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

Şirkətin bütün məlumatları və məlumat resursları vəzifəsindən asılı olmayaraq bütün işçilər tərəfindən qorunur və Şirkət tərəfindən nəzərdə tutulan qaydalara müvafiq istifadəsi tənzimlənərək müvafiq təhlükəsizlik davranışları təmin edilir.

Şirkətə məxsus vəsaitlər və resurslar yalnız legitim biznes təyinatı əsasında istifadə olunabilər. Bu resurslar - avadanlıq, obyektlər, proqram təminatı, məlumat bazası və maliyyə vəsaitləri və s. digər aktivlərdir. Hər bir işçi ona həvalə edilmiş Şirkətə məxsus resursların mühafizəsinə  ya sui-istifadə olunmamasına təminat verməlidir.

### *5.1. Şəxsi məlumatların məxfiliyi*

Şirkət işçilərin, müştərilərin və biznes fəaliyyətində iştirak edən hər bir şəxsin şəxsi məlumatlarının qorunmasına görə məsuliyyət daşıyır.

Şəxsi məlumatlar yalnız legitim biznes təyinatı üçün istifadə edilə bilər.  Şəxsi məlumatlara çıxışı olan işçilər bu məlumatları yalnız “Avromed Company” QSC-nin siyasətlərinə və məlumatların qorunması haqqında ölkə qanunvericiliynə müvafiq qaydada toplayır, saxlayır, ötürür və istifadə edir.

Vəzifəniz şəxsi məlumatların emalı ilə bağlıdırsa, onların düzgün toplanması, qorunması vəistifadəsi barədə lazımlı biliyə sahib olmalısınız və müvafiq təlimlərdə iştirak etməlisiz.

### *5.2. Məxfi məlumat və konfidensiallıq*

Məlumat Şirkətin əsas aktividir. Şirkətin yazılı və ya şifahi məlumatları Şirkətə məxsusdur. Konfidensial və məxfi məlumat ictimaiyyətə açıq olmayan bütün məlumatı daxil edir. Üçüncü şəxslərə aid “Avromed Company” QSC-yə etibar edilmiş məlumatı daxil edən məlumatın açıqlanması rəqiblərin xeyrinə və Şirkətin ziyanına ola bilər.

İşçilərin və müştərilərin şəxsi məlumatları, satış haqqında məlumatlar, maliyyə məlumatları və büdcə strategiyaları, marketinq məlumatları və strategiyaları, tədqiqat və strateji inkişaf tədbirləri və s. məlumatlar şirkətin məxfi məlumatı hesab edilir.

Siz daima Şirkətin, eləcə də tərəfdaşları və müştərilər tərəfindən sizə etibar edilmiş məxfi məlumatın konfidensiallığını qorumalısınız. Hər hansı konfidensial və yaxud məxfi məlumatın icazəsiz açıqlanması qadağandır. Bu Şirkətin və yaxud onun tərəfdaşlarının və ya müştərilərinin rəqabət gücünə mənfi təsir göstərə, və yaxud üzərinizə və yaxud Şirkətin üzərinə hüquqi öhdəliklər qoya bilər.

Yalnız rəsmi nümayəndə və yaxud xüsusi təyin edilmiş şəxs media orqanlarından daxil olan suallara aydınlıq gətirə bilər. Məxfiliyi pozan və Şirkətə məxsus məxfi məlumatları açıqlayan işçilərə intizam tədbiri tətbiq oluna, habelə, əmək münasibətlərinə xitam verilə bilər.

### *5.3. Əqli mülkiyyət*

İntellektual əməyin bəhrəsi və yaradılmış informasiya nəticəsində mülkiyyət hüququ yaranır ki, bu mülkiyyət forması əqli mülkiyyət adlanır. Əqli mülkiyyətdən gəlir əldə etmək və başqalarının ondan gəlir almağının qarşısını almaq hər bir şirkət üçün vacib bir məsuliyyətdir. Qeyri-maddi varlıq olsa da, əqli



***Bu sənəd üzrə bütün hüquqlar “Avromed Company” QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***

mülkiyyət şirkətin fiziki aktivlərindən daha qiymətli ola bilər. Əqli mülkiyyət rəqabət üstünlüyünü təmsil edir və nəticədə mülk sahibi olan şirkətlər tərəfindən qəti şəkildə qorunur.

Şirkət üçün işçilər, agentlər, nümayəndələr, kontraktorlar, məsləhətçilər və ya biznes tərəfdaşları tərəfindən hazırlanmış hesabatlar, strateji tədqiqat işləri, fəaliyyət planları, layihələr, konsepsiyalar və s. (lakin bununla məhdudlaşmayan) sənədlər toplusu əqli mülkiyyətdir, üzərində Şirkətin mülkiyyət hüququ tanınır və qorunur.

Digərlərin əqli mülkiyyətinə hörmətlə yanaşmalı və əqli mülkiyyətlə bağlı bütün qanunlara və sövdələşmələrə riayət etməlisiniz.

Şirkətlə əmək münasibətləri və yaxud əməkdaşlıq zamanı Şirkətin biznes fəaliyyətilə bağlı yaradılmış, istehsal edilmiş, ərsəyə gəlmiş, yazılmış və ya hazırlanmış bütün əqli mülkiyyət obyektləri barədə Şirkətə məlumat verilməlidir ki, bu əqli mülkiyyət üzərindəki hüquqlar qanuna müvafiq qaydada Şirkətə ötürülsün.

### 5.4. Elektron resurslardan istifadə

Şirkətin ofis və ya mobil telefon, poçt, intranet və ya elektron poçt kimi telekommunikasiya vasitələri Şirkətin mülkiyyətidir. Bu kommunikasiya vasitələrindən istifadə bütün işçilərin üzərində məsuliyyət və müvafiq öhdəliklər yaradır. Şirkətin əqli mülkiyyəti, təhlükəsizlik sistemləri və əməkdaşların təhdid, təhqir və şəxsi həyatlarına müdaxilədən təcrid mühiti qorunmalı, hər kəs tərəfindən eyni intizamla yanaşılmalıdır.

İşçinin elektron kommunikasiyası və ya məlumat data bazasına giriş imkanları Şirkətin invertar və ya maddi vəsait resursları - kompüterlər, netebook, smart telefonlar, tabletlər və ya digər mobil cihazlardan istifadə vasitəsilə yaradılırsa, bu zaman Şirkətin serverində saxlanılan məlumatlar şəxsi hesab olunmur. Şirkət onun İT resursları ilə (habelə şəxsi istifadə üçün nəzərdə tutulmuş internet resursları) ilə həyata keçirilən yaxud bütün intranet, elektron poçt və ya rəqəmsal fəaliyyəti monitorinq edib, yoxlamaq hüququnu özündə saxlayır.

Şirkətin İT resurslarından sui-istifadə informasiya texnologiyalarına girişin məhdudlaşdırılması, işə xitam verilməsi daxil olmaqla intizam tədbirləri və müvafiq qanunların tələb etdiyi kimi müvafiq tənzimləyici orqanlara hesabat verilməsi ilə nəticələnə bilər.



***Bu sənəd üzrə bütün hüquqlar "Avromed Company" QSC-yə aiddir və üçüncü tərəflərin istifadəsinə yol verilmir.***